**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI BİZNES UNİVERSİTETİNİN**

# BAKI BİZNES UNİVERSİTETİNİN 5 İLLİK STRATEJİ İNKİŞAF PLANI

Planın əhatə etdiyi dövr: 2024-2028-ci illər

Planın müəllifi: Bakı Biznes Universiteti

**Strateji Plan əsasən qəbul edilmiş, təklif və rəylər nəzərə alınmaqla təkmilləşdirilsin.**

**Elmi Şuranın 13.09.2023-cü il tarixli iclasının qərarı ilə əsasən təsdiq edilmişdir.**

**(Protokol N1)**

**Təsdiq edirəm:** ____________

**Rektor: i.e.d., prof. İ.M.Abbasov**

**"13" sentyabr 2023**

**BAKI-2023**

## MÜNDƏRICAT


**1. BBU HAQQINDA**

1.1. Universitetin tarixi haqqinda xülasə.

1.2. Fəaliyyət istiqamətləri: Tədris, Təlim-tərbiyə, Elmi tədqiqat, Beynəlxalq əlaqələr

1.3. Resurslar

**2. MISSIYA, GƏLƏCƏYƏ BAXIŞ, ƏSAS DƏYƏRLƏR**

2.1. Əsas məqsəd (Missiya)

2.2. Gələcəyə baxış (Vizion)

2.3. Əsas dəyərlər

**3. GZİT təhlili**

**4. BAKI BIZNES UNIVERSITETININ KEYFIYYƏT TƏMINATI SIYASƏTI.**

**5. STRATEJI HƏDƏFLƏR, STRATEJI MƏQSƏDLƏR, GÖRÜLƏCƏK TƏDBIRLƏR.**

***Strateji hədəf 1.* Universitetin rəqəmsallaşdırılması tədbirlərinin həyata keçirilməsi.**

– Prioritet 1.1. İdarəetmə informasiya sisteminin inkişafı və sənəd dövriyyəsinin rəqəmsallaşması

– Prioritet 1.2. Texnoloji resursların rəqəmsallaşdırılması.

***Strateji hədəf 2. Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər***

– Prioritet 2.1. Kafedralarda sahibkar universitet modelinin tətbiqi

– Prioritet 2.2. Universitet-sənaye iş birliyinin inkişaf etdirilməsi.

***Strateji hədəf 3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi***

– Prioritet 3.1. İxtisas laboratoriyalarının müasir üsullarla təkmilləşdirilməsi

– Prioritet 3.2. Universitetin texniki imkanlarının dövrü olaraq genişləndirilməsi və müasirləşdirilməsi.

***Strateji hədəf 4. Elmi tədqiqat işlərinin beynəlxalq standartlarda həyata keçirilməsi, beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması (SCOPUS, Web of Science) istiqamətində tədbirlər***

- Prioritet 4.1. Elmi-tədqiqat işlərinin müasir standartlara uyğunlaşdırılması
- Prioritet 4.2. Elmi məqalələrin beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması
- Prioritet 4.3. Elmi tədqiqat işlərinin kommersiyalaşdırılması
- Prioritet 4.4. Audit jurnalının beynəlxalq standartlara uyğunlaşdırılması, nüfuzlu və daha çox beynəlxalq xülasələndirmə bazalarına üzvlüyünə nail olunması

***Strateji hədəf 5. Tələbə kontingentinin formalaşdırılması, tələbə-məzunların peşə bacarıqlarının sertifikatlaşdırılması və onların karyera inkişafı.***

- Prioritet 5.1. Tələbə kontingentinin formalaşdırılmasında təbliğat və təşviqat işlərinin genişləndirilməsi
- Prioritet 5.2. Tələbə və məzunların peşə bacarıqlarının sertifikatlaşması tədbirləri
- Prioritet 5.3. Tələbələrin tədris və elmi tədqiqatda stimullaşdırılması.
- Prioritet 5.4. Məzunlarla işin təkmilləşdirilməsi

***Strateji hədəf 6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsi tədbirləri***

- ***Prioritet 6.1. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək***
- ***Prioritet 6.2. Universitetə əcnəbi tələblərin qəbulu***
- ***Prioritet 6.3.*** **Beynəlxalq layihələrdə iştirak**
- ***Prioritet 6.4.*** **Elmi tədqiqatın beynəlmiləlləşməsi**
- ***Prioritet 6.5. Təhsil proqramlarının beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması***
- ***Prioritet 6.6. Universitet-Sənaye əməkdaşlığının inkişaf etdirilməsi***
- ***Prioritet 6.7. Təhsilalanların və məzunların karyera inkişafını beynəlxalq standartlara uyğunlaşdırmaq.***

***Strateji hədəf 7. Professor-müəllim heyətinin sertifikatlaşdırılması, pedaqoji kadr hazırlığı***

- Prioritet 7.1. Professor -müəllim heyətinin peşə bacarıqları üzrə sertifikat-laşdırılması
- Prioritet 7.2. Pedaqoji kadrların yeni təlim texnologiyalarının tətbiqi baxı-mından təkmilləşdirilməsi.
- Prioritet 7.3. Təlim nəticələrinin tətbiqində nailiyyətlərin artırılması.
- Prioritet 7.4. Pedaqoji kadrların hazırlanması və inkişafı

***Strateji hədəf 8. Ölkənin aparıcı universitetinə çevrilməsi istiqamətində tədbirlərin hazırlanması və icrası.***

- Prioritet 8.1. Universitetin rəqabət qabiliyyətinin gücləndirilməsi və reytinq potensialının artırılması.
- Prioritet 8.2. Təhsil proqramlarının monitorinqi və təkmilləşdirilməsi.
- Prioritet 8.3. Tədris-təlim texnologiyalarının təkmilləşdirilməsi.
- Prioritet 8.4. İdarəetmə sisteminin təkmilləşdirilməsi

***Maliyyələşdirmə***

***Monitorinq və qiymətləndirmə***

# 1. UNİVERSİTET HAQQINDA

## 1.1. Universitetin tarixi haqqinda xülasə.

Bakı Biznes Universiteti 1993-cü ildə yaradılmışdır. O, bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması, formalaşması və inkişaf edilməsi üçün yüksək ixtisaslı iqtisadçı mütəxəssislər hazırlayan özəl ali təhsil müəssisəsidir. Bazar iqtisadiyyatı münasibətlərinə keçid yeni təfəkkürlü yüksək ixtisasli mütəxəssislərə, o cümlədən, beynəlxalq münasibətlər, kommersiya, biznes və sahibkarlığın digər sahələrində iqtisadçı kadrlara böyük ehtiyac yaratmışdır. Bakı Biznes Universiteti ali təhsil müəssisəsi kimi bu problemlərin həllində mühüm rol oynayır.

Azərbaycan Respublikasinin Təhsil Nazirliyinin 1993-cü ildə Bakı Biznes Universitetinə fəaliyyət üçün verdiyi qərara uyğun olaraq Nazirlər Kabinetinin 204 sayli sərəncamına əsasən Universitet lisenziya ilə təmin edilmişdir. Həmin lisenziya ilə Universitetdə bakalavriat və magistratura səviyyələrində mütəxəssis hazırlığı müəyyən edilmişdir. 19 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən Bakı Biznes Universitetinə müddətsiz lisenziya verilmişdir.

Bakı Biznes Universitetində tədris prosesi 18 ixtisasda bakalavr və magistr hazırlığı üzrə 2 fakültə və 8 kafedra tərəfindən aparılır. Bundan başqa Universitetdə 3 ixtisas üzrə doktorantura hazırlığı həyata keçirilir.

Universitetdə iqtisadiyyat, idarəetmə və biznes sahələri üzrə geniş profilli mütəxəssislər hazırlamaq üçün Azərbaycan Respublikasının tanınmış alim və mütəxəssisləri çalışırlar. Hazırda Universitetimizdə yüzdən çox professor-müəllim heyəti tərəfindən kadr hazırlığı həyata keçirilir.

## 1.2. Fəaliyyət istiqamətləri: Tədris, Elmi tədqiqat, Tələbələrlə iş Beynəlxalq əlaqələr

### Tədrisin fəaliyyəti

Tədris fəaliyyəti Bakı Biznes Universitetinin fəaliyyətinin əsas sahələrindən biri olub, mütəxəssis hazırlığının həyata keçirilməsində birbaşa rol oynayır. Universitetdə

ali təhsil pilləsinin müvafiq səviyyələri üzrə təhsilin müvafiq təhsil proqramları əsasında təşkil olunur. Universitetdə tədris prosesi ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrində dövlət standartının tələblərinə, dünyanın aparıcı ali məktəblərinin təcrübəsinə əsasən həyata keçirilir. Universitetdə bakalavr, magistr, doktorant hazırlığının ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları, onların əsasında hazırlanmış tədris planları, fənlər üzrə işçi tədris proqramları-sillabuslar dünyanın, xüsusilə avropanın aparıcı universitetlərinin müvafiq sənədlərinə uyğunlaşdırılmışdır.

Tədrisdə prosesinin səmərəli təşkili məqsədilə layihələr, hesabatlar, debat, əqli hücum, sərbəst iş, paket həlli (portfolio), multimedia sessiyaları, video və audio mühazirələr, ekspert kimi təlim metodlarından istifadə edilir, frontal sorğu, komanda işi, açıq müzakirələr, şifahi təqdimat və sair qiymətləndirmə metodları tətbiq olunur.

Tədris prosesi tələbəyönümlü təlim meetodları əsasında həyata keçirilir, tələbələrdə müvafiq fənlər üzrə peşə kompetensiyaları və təlim nəticələrini formalaşdırmaqla, onlarda təhsil aldıqları ixtisaaları üzrə bacarıqlarının aşılanmasına xidmət edir. Universitetdə təhsil fəaliyyəti mütəmadi olaraq innovativ metodların, texnologiyaların cəlb olunması və tətbiq edilməsi əsasında inkişaf etdirilir, partnyor olduğu təşkilatlarla sıx qarşılıqlı əlaqədə olmaqla, tədrisdə elm və praktikanın sintezinə nail olunur.

**Elmi fəaliyyət.**

Bakı Biznes Universitetində də onun fəaliyyət istiqamətləri içərisində tədris fəaliyyəti ilə bərabər elmi tədqiqat fəaliyyəti də əhəmiyyətli yer tutur. Aparılan elmi-tədqiqat işlərinin beynəlxalq standartlara uyğunluğu, tədqiqatlarda innovativliyin, təşəbbüskarlığın, səmərəliyin artırılması prinsipləri hər zaman diqqət mərkəzində olmuşdur.

Bakı Biznes Universitetində aparılan elmi tədqiqat fəaliyyətinin nəticəsində əldə edilmiş məhsullar fundamental tədqiqat əsərlərindən, dissertasiya işlərindən, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalardan, elmi məqalələr və tezislərdən ibarətdir. Strateji və cari dövrlər üzrə elmi-tədqiqat planlarını formalaşdırarkən Respublikanın direktiv orqanlarının tapşırıqlarına, ölkəmizin sosial-iqtisadi inkişafının prioritet

istiqamətlərinə, iqtisad elminin tələblərindən irəli gələn problemlərin həllinə, ölkəmizin milli iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafına istiqamətlənirik.

Bakı Biznes Universitetində elmi-tədqiqat işləri «Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan milli iqtisadiyyatın inkişafı istiqamətləri» aspektində aparılır, yeni təsərrüfatçılıq sistemində maliyyə, audit, mühasibat uçotu, iqtisadi təhlil, logistika, biznesin idarə edilməsi, marketinq araşdırmaları məsələləri öyrənilir və bu istiqamətdə elmi konfranslar, simpoziumlar təşkil edilir. Universitetdə ölkəmizin xarici iqtisadi əlaqələrinin inkişafı, investisiya siyasətinin kəmiyyət və keyfiyyət baxımından öyrənilməsi, müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının müasir vəziyyəti tədqiq edilir. Azərbaycan Respublikasının sosial inkişafına dair dəyirmi masalar arxasında müzakirələr təşkil edilir.

Bakı Biznes Universitetinin öz dövri mətbu orqanı – "Audit" jurnalıdır. "Audit" jurnalı elmi jurnaldır. Jurnal 6-7 çap vərəqi həcmində rübdə bir dəfə olmaqla, ildə dörd dəfə nəşr olunur. "Audit" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na daxildir. Jurnalda respublikanın aparıcı iqtisadçı-alimləri, eyni zamanda Bakı Biznes Universitetinin professor-müəllim heyəti müxtəlif mövzularda elmi məqalələrlə çıxış edir, milli iqtisadiyyatın müxtəlif sahələri üzrə Azərbaycan elminə müvafiq töhfələr verirlər.

### 1.3.Resurslar.

BBU-da resurslar insan resursları, maddi-texniki resurslar, informasiya resursları və maliyyə resurslarından.

Maddi-texniki resurslar. Universitetin maddi-texniki resursları innovativ tələblərə uyğundur, tədris, təlim, elmi-tədqiqat, beynəlxalq əlaqələr, təsərrüfatçılıq sahəsində səmərəli istifadə üçün əlverişlidir. Universitetin maddi-texniki bazası hər il yenilənir.

Maliyyə resursları. Universitetin təhsil haqqından, beynəlxalq qrant layihələrindən və yardımçı xidmətlərdən əldə etdiyi gəlirlər sayılır.

İnformasiya resursları. Universitetin Web saytı, Empro proqramı, zəngin informasiya texnologiyaları informasiya resurslarının tərkibini təşkil edir. Elektron kağızsız sənəd dövrüyyəsinin təşkili məsələsinə hədəflənməyimiz bu sahədə məhsuldarlığı daha da artıracaqdır.

İnsan resursları. İnsan resursları idarəetmə heyətinə, inzibati heyətə, pedaqoji kadr heyətinə, texniki heyətə bölünür. Qeyd edilən bütün heyət üzvləri öz peşəsi üzrə kompetensiyaları və bacarıqlarınınn inkişaf etdirilməsi Universitetinin kadr siyasətinin məzmununu təşkil edir. Universitetin strateji kadr siyasətinin əsas istiqamətlərindən biri də bakalavriat pilləsində təhsil alan tələbələrin magistratura və doktorantura təhsili verməklə onları pedaqoji kadr heyətinə cəlb etməkdir.

| № | Fəaliyyət istiqamətləri və strateji məqsədlər | **Məsul şəxslər** |
|---|---|---|
| 1. | Strateji hədəf 1. Universitetin rəqəmsallaşdırılması tədbirlərinin həyata keçirilməsi. | Rektor, İnformatika Mərkəzi |
| **2.** | Strateji hədəf 2.Sahibkar universitetə çevrilməsi istiqamətində tədbirlər | Rektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 3. | Strateji hədəf 3. Maddi-texniki bazanın zənginləşdirilməsi və müasirləşdirilməsi | Rektor, Təsərrüfat Şöbəsi |
| **4.** | Strateji hədəf 4.Elmi tədqiqat işlərinin beynəlxalq standartlarda həyata keçirilməsi, beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması (SCOPUS, Web of Science) istiqamətində tədbirlər | Elmi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 5. | Strateji hədəf 5. Tələbə kontingentinin formalaşdırılması, tələbə-məzunların peşə bacarıqlarının sertifikatlaşdırılması və onların karyera inkişafı. | Təlim-tərbiyə işləri üzrə prorektor, Tələbə qəbulu şöbəsi, Karyera mərkəzi |
| **6.** | Strateji hədəf 6. Beynəlxalq əlaqələr və universitetin beynəlmiləlləşdirilməsi tədbirləri | Beynəlxalq əlaqələr üzrə prorektor |
| **7.** | Strateji hədəf 7. Professor-müəllim heyətinin sertifikatlaşdırılması, pedaqoji kadr hazırlığı | Tədris işləri üzrə prorektor, Kafedra müdirləri |

| | | |
|---|---|---|
| **8.** | Strateji hədəf 8. Ölkənin aparıcı universitetinə çevrilməsi istiqamətində tədbirlərin hazırlanması və icrası. | Tədris işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, kafedra müdirləri |

## 2. MISSIYA, GƏLƏCƏYƏ BAXIŞ, ƏSAS DƏYƏRLƏR

### 2.1. Əsas məqsədimiz (Missiya)

- Tədqiqatları beynəlxalq standartlara uyğunlaşdırmaqla, Azərbaycan Milli İqtisadiyyatının ayrı-ayrı sahələrinə töhfələr vermək, ölkəmizin mərkəzi və icra hakimiyyəti orqanları üçün həmin sahələrin peşə kompetensiyalarına uyğun bacarıq və səriştələrə malik mütəxəssislər hazırlamaq;
- Əmək bazarına biznes və sahibkarlıq sahəsində beynəlxalq və yerli peşə standartları və kompetensiyaları əsasında sertifikatlaşmış mütəxəssislər təklif etmək.

### Gələcəyə baxış (Vizion)

- Akademik təhsil və tədqiqatlar sahəsində yüksək beynəlxalq standartlara uyğunlaşmaqla, ölkənin və Cənubi Qafqaz bölgəsinin social-iqtisadi inkişafına töhfə verən aparıcı universitetlərdən birinə çevrilmək. .

### 2.3 . Əsas dəyərlər

**Qloballaşma:** Təhsilin qloballaşması proseslərini daim izləmək və müasir dünyada baş verən dəyişikliklərə uyğunlaşmaq.

**İnteqrasiya:** Fəaliyyətin bütün sahələrində, o cümlədən tədris, elm və beynəlxalq əlaqələrin inkişafında dünya təhsil sisteminə inteqrasiya etmək.

**Müasirlik:** Dünya təsil sistemində müasir təlim texnologiyalarını fasiləsiz olaraq mənimsəmək.

**Yaradıcılıq.** Təhsil sistemində problemlərə yaradıcı yanaşmaqla, tədrisin inkişafında təşəbbüskar meyilləri daim inkişaf etdirmək.

**Keyfiyyətlik.** Fəaliyyəti keyfiyyət siyasətinə uyğun olaraq inkişaf etdirmək və təhsilin idarə edilməsində keyfiyyət standartlarına cavab vermək.

**İnnovasiya.** Təhsil resurslarının dövrü olaraq yenilənməsi, innovativ təlim texnologiyalardan səmərəli istifadə imkanlarını genişləndirmək.

**Cavabdehlik.** Peşəkar kadrların hazırlanması və təqdim olunması sahəsində cəmiyyət və dövlətimiz qarşısında məsuliyyət hissini daim inkişaf etdirmək.

## 3. UNIVERSITETIN GZİT (SWOT) TƏHLILI

**Güclü tərəflər**

- Universitetin və hər bir struktur vahidinin strateji inkişaf planı mövcuddur.
- Universitet müasir və innovativ maddi-texniki bazaya malikdir.
- Peşəkar və səriştəli (sertifikatlaşmış) müəllim heyəti formalaşdırmaq siyasətini yürüdür.
- Personalın diferensiallaşmış əmək haqqı sisteminin tətbiqinə başlamışdırş.
- Beynəlxalq əlaqələr yetərli səviyyədədir.
- Beynəlxalq layihələrdə coordinator kimi iştirak etmiş, və uğurlu nəticələr əldə etmişdir.
- Elmi tədqiqat sahəsində məhsuldar fəaliyyət göstərir.
- Beynəlxalq layihə çərçivəsində keyfiyyət təminatının uğurlu tətbiqi
- Personalın gəncləşdirilməsi siyasətinin davamlı tətbiqi
- Universitetin Bakı şəhərində mərkəzi rayonlardan birində yerləşməsi.
- Universitetin proqram təminatının mövcudluğu
- Universitetin "Audit" jurnalı bir sıra beynəlxalq xülasələndirmə bazasına daxildir.

**Zəif tərəflər**

- Tədrisin səviyyəsinin nəzərdə tutduğumuz səviyyədə olmaması.
- Tələbələrin sertifikatlaşması işinin ləng getməsi.
- Ixtisas laboratoriyalarının tədrisin məzmununu tam əks etdirməməsi.
- İndeksasiya və xülasələndirmə bazalarında məqalələrin çox az olması.
- Tələbələrin geniş təqaüd imkanlarının olmaması.
- Tələbə kontingentinin müasir təlim metodlarından istifadə etmək meyillərinin az olması.
- Elmi tədqiqatın kommersiyalaşması sahəsində səriştəsizlik

- Məzunlarla əlaqələrin yetərli səviyyədə olmaması.

**İmkanlar**

- Təhsilə dövlət dəstəyinin mövcudluğu.
- Təhsil Nazirliyi tərəfindən ali təhsil müəssisələrinin beynəlxalq əməkdaşlıq çərçivəsində yararlanma imkanlarının yaradılması
- Ali məktəblərə qəbul prosesinin şəffaflığı.
- Təhsil Tələbə kreditindən istifadə imkanlarının mövcudluğu.
- Müəllim-professor heyətinin praktiki bacarıqlarının inkişafı baxımından sertifikatlaşması məqsədilə Təlim Mərkəzlərinin mövcudluğu
- Beynəlxalq əməkdaşlığın yetərliyi
- Beynəlxalq layihələrin vasitəsilə təhsilin idarə edilməsində Avropa ölkələrinin təcrübəsindən yararlanmağın mümkünlüyü.
- Tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirak imkanları.

**Risklər**

- Azərbaycanda Covid-19 virusu ilə əlaqədar xüsusi karantin rejiminin müddətinini uzadılması
- Cəmiyyətdə ozəl təhsil müəssisələrinə olan biganə münasibət və etimadsızlıq.
- Təhsildə rəqabətin güclənməsi
- İkinci ixtisas qrupu üzrə abituriyentlərin orta keçid balının aşağı olması.
- Xaricdən abituriyent axınının aşağı olması.
- Orta statistik əhali artımının və orta məktəb məzunlarının buraxılışının aşağıda düşmə ehtimalı.

## 4. BAKI BİZNES UNİVERSİTETİNİN KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasəti Azərbaycan dövlətinin təhsil siyasəti və cəmiyyətin inkişaf perspektivləri nəzərə alınmaqla ali təhsilin yüksək səviyyədə təşkili və beynəlxalq rəqabətliliyinin artırılması yolu ilə əmək bazarının tələblərinə uyğun yaradıcı, müasir düşüncəli və yüksək ixtisaslı kadr-mütəxəssislərin hazırlanmasından ibarətdir. Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasəti Universitetin Strateji inkişaf planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlmişdir.

Bakı Biznes Universitetinin keyfiyyət təminatı siyasətinin əhatə dairəsi inkişaf etmiş ölkələrin təcrübələri nəzərə alınmaqla ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasını və bu təhsil proqramlarının optimallığının, mobilliyinin təmin olunması monitorinqinin müvafiq standartlara uyğunluğunun qiymətləndirilməsini təmin etməklə yanaşı, dünyada gedən qlobal proseslər və çağırışlara uyğun olaraq informasiya texnologiyalarının inkişafı şəraitində tələbə gənclərə bu proseslərin daha səmərəli öyrədilməsi metodologiyasını müəyyənləşdirmək üçün tələbə yönümlü tədris sisteminin formalaşdırılmasını özündə ehtiva edir.

Bu sistemdə təhsilalanların yüksək keyfiyyətli tədris vəsaitləri ilə təmin edilməsi onların tədrisdə daha uğurlu nəticələr əldə etməsinin başlıca şərtlərindən biridir. Təhsil proqramları ilə yanaşı tədris metodik təminatların qaydalar və standartlara uyğunlaşdırılması vacibdir. Bakı Biznes Universitetində bütün tədris-metodik vəsaitlər hazırlanmış əsasnaməyə uyğun tərtib edilməlidir. Tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemi tələbələrin tədris prosesində daha fəal iştirakına şərait yaratmaqla onların motivasiyasının yüksəldilməsinə xidmət edir, onlarda özü-nütəhlil, müstəqil düşüncə qabiliyyətini formalaşdırmaqla yanaşı mövcud vəziyyəti təhlil edib qiymətləndirmək qabiliyyətini aşılamalıdır. Bakı Biznes Universitetinin strateji inkişaf istiqamətlərindən biri səmərəli tələbə qəbulu kompaniyasının təşkil olunması, onların təhsil alması üçün münbit şəraitin təmin edilməsi, onların yekun dövlət attestasiyasının müvafiq standartlara uyğun keçirilməsini, diplomların beynəl-xalq səviyyədə tanınmasını tədbirlərini işləyib hazırlamaq.

Bu sahələrin hər biri üçün Universitetin daxili keyfiyyət təminatı siyasətinə uyğun olaraq müvafiq tədbirlər planı və icra proqramı hazırlanmalıdır. Onu da qeyd etmək lazımdır ki, təhsilalanların təhsil mühitni zənginləşdirmək üçün təhsil resurlarının olması, maliyyə imkanlarının mövcudluğu, sosial bazanın yaradılası, müasir informasiya texnologiyaları, kitabxana, məişət xidməti, tibbi xidmət və digər resurların mövcudluğu vacibdir.

Bakı Biznes Univerisiteti bu resurslara malik olsa da, onların beynəlxalq standartlara çatdırılmasını daxili keyfiyyət təminatı siyasətinin tərkib hissəsi hesab edir. Bu resurslardan yararlanmaq üçün Universitetin tələbə dəstək sisteminin mövcud vəziyyətinin təkmilləşdirilməsi ön plana çəkilməlidir. Müasir təhsil sistemində professor-müəllim heyəti yeganə bilik mənbəyi hesab edilməsə də digər öyrənmə resurslarından səmərəli istifadə olunmasında professor-müəllim heyətinin təcrübə, məsləhət və dəstəyinə böyük ehtiyac vardır. Ona görə də daxili keyfiyyət təminatında professor-müəllim heyətinin peşəkarlığının yüksəldilməsi, müasir bilik, bacarıq və vərdişlərə yiyələnməklə yanaşı, öyrətmə metodologiyasının daim təkmilləşdirilməsinə ehtiyac var. Bu səbədən professor-müəllim heyətinin mütəmadi, ardıcıl və sistemli şəkildə peşə ixtisaslarının artırılması siyasəti qurulmalıdır. Eyni zamanda tələbəyönümlü təhsil, tədris və qiymətləndirmə sistemində tədrisin keyfiyyətinin yüksəldilməsi bilavasitə Universitetdə çalışan professor-müəllim heyətinin peşəkarlığı və öz vəzifə öhdəliklərini mövcud qaydalara uyğun səmərəli şəkildə yerinə yetirməsi ilə əlaqədardır. Bu baxımdan professor-məllim heyətinin akkreditasiya qaydaları hazırlanmalı və dövri olaraq həyata keçirilməlidir. Bakı Biznes Universitetinin fəaliyyəti ilə bağlı olan bütün proqramlar və layihələrin icrasının səmərəli təşkil edilməsi, bütün maraqlı tərəflərin şəffaf, dəqiq-dürüst məlumatlarla təmin edilməsi üçün açıq informasiya sisteminin mövcudluğu inkar edilməzdir.

Daxili keyfiyyət təminatının yüksək səviyyədə həyata keçirilməsi və informasiyaların idarə edilməsi üçün Universitetin bütün struktur vahidlərinin fəaliyyətlərinin mütəmadi olaraq qiymətləndirilməsi olduqca böyük əhəmiyyət kəsb

edir. Bütün bölmə və şöbələrin qiymətləndirilməsi əvvəlcədən müəyyənləşdirilmiş və onların vəzifə öhdəliklərinə əsasən hazırlanmış əsas fəaliyyət göstəricilərinə uyğun aparılmalıdır. Universitetin fəaliyyətləri, təklif etdiyi təhsil proqramları, seçim meyarları, proqramlardan gözlənilən təlim nəticələri, proqramların verdikləri kvalifikasiyalar, təhsil, tədris və qiymətləndirmədə istifadə edilən prosedurlar, keçid balları, tələbələr üçün yaradılmış tədris imkanları, işlə təmin olunmuş məzunların sayı və s. məlumatlar cəmiyyət üçün açıq olmalıdır. Universitetdə məlumatların idarə edilməsi və ictimaiyyətlə əlaqələrin qurulması üçün müvafiq informasiya sistemləri işləyib hazırlanmalıdır. Bu sistem təsdiq olunmuş əsasnamələrə və qaydalara uyğun təşkil edilməlidir.

Universitet öz strateji inkişaf planını və keyfiyyət təminatı siyasətini həyata keçirərkən yerinə yetirilən işlərin mövcud vəziyyətini, tədrisin keyfiyyətini, göstərdiyi fəaliyyətlərin və xidmətlərin cəmiyyətin və qlobal çağırışların tələblərinə uyğunluğunu, özünün güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini, mövcud problemlərinin üzə çıxarılmasını, ehtiyacların müvafiq göstəricilər sistemi əsasında təhlil edilməsini və qiymətləndirilməsini özündə ehtiva edən "Özünütəhlil və qiymətləndirmə" hesabatını dövri olaraq həyata keçirməlidir.

## 5. STRATEJI HƏDƏFLƏR, STRATEJI MƏQSƏDLƏR, GÖRÜLƏCƏK TƏDBIRLƏR.

### 1. STRATEJI HƏDƏF 1. UNIVERSITETIN RƏQƏMSALLAŞDIRILMASI TƏDBIRLƏRININ HƏYATA KEÇIRILMƏSI.

- ***Prioritet 1.1. İdarəetmə informasiya sisteminin inkişafı və sənəd dövriyyəsinin rəqəmsallaşması***

1.1.1. Empro informasiya sisteminin imkanlarını genişləndirməklə, sistemi dövrü olaraq təkmilləşdirmək.

1.1.2. Kağızsız sənəd dövriyyəsinin rəqəmsallaşdırılmasının proqram təminatına malik olmaq.

- ***Prioritet 1.2. Texnoloji resursların rəqəmsallaşdırılması***

1.2.1. Elektron kitabxananın electron təhsil resurslarının artırılması və həmin resurslardan istifadə imkanlarının artırılması..

1.2.2. Müvafiq ixtisaslar laboratoriyalarında proqram təminatı paketinə malik olmaqla, tələbələrdə informasiya texnologiyalarından istifadə imkanları və bacarıqlarının inkişafı.

1.2.3. Kafedralarda electron təhsil resurslarına dair bankın yenilənməsi, artırılması və onlardan səmərəli istifadə imkanlarının genişləndirilməsi

1.2.4. Karidorlarda məlumat lövhələrinin elektronlaşdırılması.

## STRATEJI HƏDƏF 2. SAHIBKAR UNIVERSITETƏ ÇEVRILMƏSİ İSTİQAMƏTİNDƏ TƏDBİRLƏR.

- ***Prioritet 2.1. Kafedralarda sahibkar universitet modelinin tətbiqi.***

2.1.1. Kafedralarda professor-müəllim heyəti arasında start-up layihələrin hazırlanmasına dair təlimlərinin keçirilməsi

2.1.2. Professor-müəllim heyətinin start-up layihələrinə cəlb olunması və iştirakının təmin olunması.

2.1.3. Tələbələrin start-up və biznes layihələrinə cəlb edilməsi.

2.1.4. Tələbələr arasında innovasiya ideyaları müsabiqəsinin təşkili və onlara bu sahədə yaradıcılıq stimullarının verilməsi.

- ***Prioritet 2.2. Universitet - sənaye iş birliyinin inkişafı.***

2.2.1. Universitetin koordinatorluğu ilə "Təhsil-elm-sənaye" birliyinin yaradılması və gücləndirilməsi.

2.2.2. Universitet - sənaye iş birliyi mərkəzinin yaradılması, bu istiqamətdə sahibkarlıq modelinin tətbiqi.

2.2.3. Universitetin sənaye parklarında təmsil olunmasına nail olmaq.

2.2.4. Universitetin tərkibində törəmə-sənaye müəssisələirinin, biznes inqubatorların yaradılması və inkiafına nail olmaq.

2.2.5. Sənaye müəssisələrində universitetinin şöbə, tədqiqat mərkəzlərinin və ya kafedralarının yaradılması.

2.2.6. Universitetdə sənaye müəssisələrinin laboratoriyalarının yaradılması.

## STRATEJI HƏDƏF 3. MADDI-TEXNIKI BAZANIN ZƏNGINLƏŞDIRILMƏSI VƏ MÜASIRLƏŞDIRILMƏSI

- ***Prioritet 3.1. İxtisas laboratoriyalarının müasir üsullarla təkmilləşdirilməsi.***

3.1.1. İxtisas laboratoriyalarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində tədbirlər planının tərtibi və icrası.

3.1.2. İxtisas laboratoriyalarının keyfiyyətinin yüksəldilməsi.

3.1.3. İxtisas laboratoriyalarının praktiki və texniki imkanlarının artırılması.

3.1.4. İxtisas laboratosiyalarının istehsalat sahəsi ilə iş birliyinin genişləndirilməsi.

- ***Prioritet 3.2. Universitetin texniki imkanlarının dövrü olaraq genişləndirilməsi və müasirləşdirilməsi.***

3.2.1. Universitetinin İT bazasının daim təkmilləşdirilməsi.

3.2.2. Kitabxananın İnformasiya Texnologiyaları bazasının təkmilləşdirilməsi, kitabxana fəaliyyətinin proqram təminatının tətbiqi.

3.2.3. Auditoriyaların texniki imkanlarının təkmilləşdirilməsi

3.2.4. Mətbəə və nəşriyyatın maddi texniki bazasının təkmilləşdirilməsi.

## STRATEJI HƏDƏF 4. ELMI TƏDQIQAT IŞLƏRININ BEYNƏLXALQ STANDARTLARDA HƏYATA KEÇIRILMƏSI, BEYNƏLXALQ XÜLA-SƏLƏNDIRMƏ BAZALARINDA NƏŞR OLUNMASI (SCOPUS, WEB OF SCIENCE) İSTİQAMƏTİNDƏ TƏDBİRLƏR.

- ***Prioritet 4.1. Elmi-tədqiqat işlərinin müasir standartlara uyğunlaşdırılması.***

4.1.1. Müasir standartlara uyğun dərslik, dərs vəsaitlərinin nəşr edilməsi.

4.1.2. Dərsliklərin, dərs vəsaitlərinin və metodik göstərişlərin müvafiq standartlara və BBU-nun daxili qaydalarına uyğun hazırlanması.

4.1.3. Metodik vəsaitlərin, tədris vəsaitlərinin fənnin təlim nəticələrinə və BBU-nun daxili keyfiyyət standartlarına uyğunluğunun qiymətləndirilməsi.

4.1.4. İllik elmi tədqiqatların milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına dair aparılmasının təmin edilməsi.

4.1.5. İkitərəfli müqavilələr əsasında partnyor universitetlər, tədqiqat mərkəzləri ilə birgə elmi tədqiqatlar aparmaq.

- ***Prioritet 4.2. Elmi məqalələrin beynəlxalq xülasələndirmə bazalarında nəşr olunması***

4.2.1. Professor-müəllim heyətinin indeksasiya və xülasələndirmə bazasının tələblərinə uyğun tədqiqataparma bacarıqlarının formalaşdırılması məqsədilə təlimlərin keçirilməsi.

4.2.2. Bu sahədə təcrübəsi olan təşkilat və universitetlərlə birgə işin təşkili.

4.2.3. Professor-müəllim heyətinin indeksasiya və xülasələndirmə bazasına daxil olan jurnallarda nəşr olunmasının stimullaşdırılması.

- ***Prioritet 4.3. Elmi tədqiqat işlərinin kommersiyalaşdırılması***

4.3.1. Təsərrüfat hesablı elmi-tədqiqatın təşkilinin əsasnaməsinin hazırlanması.

4.3.2. Universitetin tərkibində Tədqiqat Institutları və ya xüsusi tədqiqat Mərkəzlərinin yaradılması.

4.3.3. Elmi-pedaqoji personalda podratçı təşkilatların təlabatına uyğun elmi tədqiqatların aparılmasına dair tədqiqatçılıq səriştəsinə malik olmaq.

4.3.4. Təsərrüfat hesablı elmi-tədqiqata cəlb olunan heyətin stimullaşdırılması mexanizmin hazırlanması.

4.3.5. Doktorant və magistrantların təsərrüfat hesablı tədqiqatlara cəlb edilməsi.

- ***Prioritet 4.4. Audit jurnalının beynəlxalq standartlara uyğunlaşdırılması, nüfuzlu və daha çox beynəlxalq xülasələndirmə bazalarına üzvlüyünə nail olunması***

4.4.1. Audit jurnalının beynəlxalq standartlara, o cümlədən beynəlxalq indeksasiya və xülasələndirmə bazasına daxil olan jurnalların tələblərinə uyğunlaşdırılması.

4.4.2. Audit jurnalına təqdim olunan məqalələrin araşdırma, təhlil, stimullaşdırma, riyazi-iqtisadi metodların tətbiqi xüsusiyyətlərinin artırılması.

4.4.3. Audit jurnalının beynəlxalq indeksasiya və xülasələndirmə bazasına üzvlüyünü artırmaq.

## STRATEJI HƏDƏF 5. TƏLƏBƏ KONTINGENTININ FORMALAŞDIRILMASI, TƏLƏBƏ-MƏZUNLARIN PEŞƏ BACARIQLARININ SERTIFIKATLAŞDIRILMASI VƏ ONLARIN KARYERA INKIŞAFI

- ***Prioritet 5.1. Tələbə kontingentinin formalaşdırılmasında təbliğat və təşviqat işlərinin genişləndirilməsi***

5.1.1. Tələbə kantingentinin formalaşdırılmasının PR imkanlarını genişləndirmək.

5.1.2. Universitetə qəbul olunanların orta keçid balının dövrü olaraq yüksəldilməsi.

5.1.3. Universitetə qəbulun səmərəliliyinin artırılması məqsədilə orta məktəb və lisseylərlə əlaqələrin genişləndirilməsi.

5.1.4. Əlavə təhsil üzrə beynəlxalq təcrübəni öyrənərək, bu sahədə də imkanların genişləndirilməsi.

5.1.5. Xaricdən tələbə axınının gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi.

- ***Prioritet 5.2. Tələbə və məzunların peşə bacrıqlarının sertifikatlaşması tədbirləri***

5.2.1. Tələbə və məzunların təlim nəticələri və kompetensiyalara malik olma istiqamətində stimullaşdırılması mexanizmlərinin tətbiqi.

5.2.2. Əmək bazarının tələblərinə və ya müvafiq peçə standartlarına cavab verən mütəxəssislərin hazırlanması məqsədi ilə tələbələrin sertifikatlaşdırılması.

5.2.3. Tələbələrin ixtisas ümumi peşə və peşə kompetensiyaları üzrə sertifikasiya təlimlərinə cəlb olunması.

5.2.4. Təcrübələrin tələbələrdə ümumi peşə və xüsusi peşə bacarıqlarının inkişafı istiqamətində keçirilməsi.

- ***Prioritet 5.3. Tələbələrin tədris və elmi tədqiqatda stimullaşdırılması.***

5.3.1. Tələbələrin təqaüd imkanlarının artırılması.

5.3.2. Tələbələrin Təsərrüfat hesablı layihələrə cəlb edilməsi

5.3.3. Universitet tərəfindən start-up və biznes layihələri üçün qrant proqramlarının həyata keçirilməsi.

- ***Prioritet 5.4.. Məzunlarla işin təkmilləşdirilməsi***

5.4.1. Məzunların informasiya axtarış sisteminin yaradılması.

5.4.2. Məzunlarla bağlı işin elektron bazasının yaradılması.

5.4.3. Məzunlarla mütəmadi əlaqələrin saxlanması və genişləndirilməsi

5.4.4. Məzunlarla bağlı tədbirlərin keçirilməsi.

## STRATEJI HƏDƏF 6. BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ UNIVERSITETIN BEYNƏLMILƏLLƏŞDIRILMƏSI TƏDBİRLƏRİ.

- ***Prioritet 6.1. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək***

6.1.1. Yeni universitetlərlə Əməkdaşlığın qurulması;

6.1.2. İkili diplom proqramlarının həyata keçirilməsi;

6.1.3. Respublikamızda Fəaliyyət göstərən Beynəlxalq Təşkilatlarla əlaqələrin genişləndirilməsi;

6.1.4. Universitetin Beynəlxalq Reytinq saytlarında məlumatlarının yerləşdirilməsi;

- ***Prioritet 6.2. Universitetə əcnəbi tələblərin qəbulu***

6.2.1. Beynəlxalq Tələbə agentlikləri ilə müqavilələrin imzalanması;

6.2.2. Əcnəbi tələbələrin qəbulunun həyata keçirilməsi;

6.2.3. Əcnəbi tələbələrin hazırlıq kursunun təşkili və qəbulu prosesi;

6.2.4. Əcnəbi tələbə dəstək mexanizminin formalaşdırılması;

6.2.5. Əcnəbi tələbələr üçün sosial tədbirlərin təşkili;

- ***Prioritet 6.3.* Beynəlxalq layihələrdə iştirak**

6.3.1. Erasmus+ KA 2 layihələrində iştirakın təmin olunması;

6.3.2. Erasmus+ KA1 mübadilə proqramlarında akademik , inzibati və tələbələrin iştirakının təmini;

6.3.3. Xarici donorlar tərəfində maliyyələşdirilən digər proqramlarda iştirak;

6.3.4. Müxtəlif dövlətlər tərəfindən maliyyələşdirilən dövlət proqramlarında tələbələrin iştirakının təmini;

6.3.5. Mövlanə proqramında iştirakın təmin edilməsi;

- ***Prioritet 6.4.* Elmi tədqiqatın beynəlmiləlləşməsi**

6.4.1. Beynəlxalq Konfransların həyata keçirilməsi;

6.4.2. Beynəlxalq Jurnallarda məqalələrin nəşr edilməsi;

6.4.3. Ortaq tədqiqatların və məqalələrin nəşri;

6.4.4. Beynəlxalq bazalarda məqalələrin çapı;

6.4.5. Elmin kommersiyalaşdırılması;

- ***Prioritet 6.5. Təhsil proqramlarının beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması***

6.5.1. Kurrikumların beynəlxalq standartlara uyğunlaşdırılması;

6.5.2. İnkuliziv təhsil mühitinin təmini;

6.5.3. Akademik heyətə təlimlərin təşkili;

6.5.4. Proqramlar üzrə müqayisəli təhlillərin aparılması və proqram komissiyasının təkmilləşdirilməsi;

6.5.5. Fakültə müəllimlərinin beynəlxalq mübadilə proqramlarında iştirakının təmin edilməsi;

6.5.6. Xarici professor və müəllimlərin universitetdə mühazirələrə dəvət olunması;

6.5.7. Olayın mühazirələrin təşkili;

6.5.8. Global bacarıqların inkişaf etdirən fənnlərin kurrikumlara seçmə fənn olaraq salınması;

6.5.9. Xarici dildə tədris olunan proqramların sayının artırılması və keyfiyyətinə nəzarət;

6.5.10. Fakültə Beynəlmiləlləşmə siyasətinin formalaşdırılması;

6.5.11. Proqramların beynəlxalq akkreditasiyası;

- ***Prioritet 6.6. Universitet-Sənaye əməkdaşlığının inkişaf etdirilməsi***

6.6.1. Sənaye müəssiələri ilə əməkdaşlığın inkişaf etdirikiməsi;

6.6.2. Universitet-sənaye əməkdaşlığı sahəsində elmi tədqiqatlar aparmaq və tədqiqatları təşviq etmək;

6.6.3. Universitet-sənaye əməkdaşlığı sahəsində dövlət qurum və təşkilatlarına və özəl sektora layihə və məsləhət xidmətləri göstərmək

6.6.4. Sahibkarlıq mədəniyyətinin formalaşdırılması

- ***Prioritet 6.7. Təhsilalanların və məzunların karyera inkişafını beynəlxalq standartlara uyğunlaşdırmaq.***

6.7.1. Xarici universitetlərin və şirkətlərin bu sahədə olan təcrübəsindən effektiv istifadə imkanlarını ortaya çıxarmaq və tətbiq etmək;

6.7.2. Təhsilalanların və məzunların hazırlıq səviyyəsinin əmək bazarının tələblərinə uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə tədbirlər həyata keçirmək;

6.7.3. Yerli və xarici şirkətlər haqqında məlumat bazası yaratmaq və məzunlarla bölüşmək;

## STRATEJI HƏDƏF 7. PROFESSOR-MÜƏLLIM HEYƏTININ SERTIFIKATLAŞDIRILMASI VƏ PEDAQOJI KADR HAZIRLIĞI

- ***Prioritet 7.1. Professor-müəllim heyətinin peşə bacarıqlarının sertifikatlaşdırılması***

7.1.1. Universitetin kafedralarının beynəlxalq və yerli sertifikasiya təşkilatları ilə əlaqələrinin genişləndirilməsi.

7.1.2. Professor- müəllim heyətinin xüsusi peşə bacarıqlarının və ümumi peşə bacarıqlarına dair sertifikasiya-təlim ehtiyaclarının ödənilməsi istiqamətində tədbirlər görmək.

7.1.3. Professor- müəllim heyətinin ixtisasının artırılması istiqamətində tədbirlər görmək.

- ***Prioritet 7.2. Pedaqoji kadrların yeni təlim texnologiyalarının tətbiqi baxımından təkmilləşdirilməsi.***

7.2.1. Yeni təlim texnologiyalarından sistemli şəkildə istifadə olunması məqsədilə texnoloji xəritənin daim təkmilləşdirilməsi və onun səmərəli icrasına nail olunması.

7.2.2. Pedaqoji kadrların təcrübə mübadiləsi proqramlarında iştirak imkanlarının artırılması.

7.2.3. Pedaqoji heyətin ixtisasartırma təlimlərinə ehtiyaclarının ödənilməsi.

7.2.4. Multi-media, video-audio materiallarından istifadənin genişləndirilməsi.

7.2.5. Proffessor-müəllim heyyəti tərəfindən təlim və qiymətləndirmə metod-larının tətbiqinin genişləndirilməsi və monitorinqi.

7.2.6. Müəllim tələbə mobilliyini artırılması

7.2.7. Yeni təlim texnologiyalarının tətbiqinə dair dövrü monitorinqlərin keçirilməsi.

- ***Prioritet 7.3. Təlim nəticələrinin tətbiqində nailiyyətlərin artırılması.***

7.3.1. Professor müəllim heyəti tərəfindən tələbələrə təlim nəticələrininn və peşə kompetensiyalarının aşılanması istiqamətində bacarıqlara malik olmaq.

7.3.2. Professor müəllim heyəti tərəfindən nəzəriyyə və praktikanın sintezinə hədəflənən tələbəyönümlü təlim və qiymətləndirmə metodlarının mənimsənilməsi və tətbiqi.

- **Prioritet 7.4. Pedaqoji kadrların hazırlanması və inkişafı**

7.4.1. Pedaqoji kadrların hazırlanmasında fasiləsiz təhsil siyasətinin (bakalavr-magistr-fəlsəfə doktoru-elmlər doktoru) daha da genişlənməsi.

7.4.2. Pedaqoji kadrların elmi dərəcələrinin artırılması istiqamətində tədbirlərin görülməsi.

7.4.3. Digər Universitetlərdən cəlb edilmiş pedaqoji kadrların Universitetin tədris, elmi, texniki tələblərinə cavab vermək istiqamətində bacarıqlarının formalaşdırılması baxımından təkmilləşdirilməsi.

## STRATEJI HƏDƏF 8. ÖLKƏNIN APARICI UNIVERSITETINƏ ÇEVRILMƏSİ İSTİQAMƏTİNDƏ TƏDBİRLƏRİN HAZIRLANMASI VƏ İCRASI.

- **Prioritet 8.1. Universitetin rəqabət qabiliyyətinin gücləndirilməsi və reytinq potensialının artırılması.**

8.1.1. Universitetin ölkədaxili reytinq tələblərinin müəyyən edilməsi və həmin tələblərin istiqamətində prioritetlərin dəyərləndirilməsi

8.1.2. Beynəlxalq reytinq (Dünya, Avropa, Asiya, Qafqaz regionu və sair) tələblərinin müəyyən edilməsi və həmin tələblərin istiqamətində prioritetlərin dəyərləndirilməsi.

8.1.3. Azərbaycan ali təhsil müəssisələri içərisində aparıcı ali məktəblərlə rəqabətin benç markinq siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi.

- **Prioritet 8.2. Təhsil proqramlarının monitorinqi və təkmilləşdirilməsi.**

8.2.1. Təhsil proqramının dövrü olaraq proqram komissiyası tərəfindən araşdırılması və daim əmək bazarının tələbləri ilə uzlaşdırılması.

8.2.2. Təhsil proqramlarının, tədris planlarının hazırlanmasında beynəlxalq təcrübədən istifadə edilməsinin təmin edilməsi və təkmilləşdirilməsi.

8.2.3. Təhsil proqramılarının tərtibiqində maraqlı tərəflərin, yəni üçüncü tərəfin - sənaye, istehsal müəssisələri və sahibkarların iştirakının təmin edilməsinə proqram rəhbərlərinin təşəbbüsü.

8.2.4. Müasir informasiya texnologiyalarından istifadə etməklə tələbə yönümlü təhsilin təşkili, təhsil resurslarından səmərəli istifadə etməklə, yüksək keyfiyyətli təhsil resurlarının manitorinqini aparmaq.

**Prioritet 8.3. Tədris-təlim texnologiyalarının təkmilləşdirilməsi.**

8.3.1. Tələbəyönümlü tədrisə dair innovativ metodikaların araşdırılması və tətbiqi.

8.3.2. Müasirləşən və təkmilləşən qlobal təhsil məkanında yeni təlim və qiymətləndirmə metodlarının tətbiqi imkanlarının genişləndirilməsi.

8.3.3. Universitetlər arasında kitabxana fonduna giriş imkanlarının, elektron resurslardan birgə istifadə imkanlarının yaradılması. (Bu beynəlxalq layihənin üzvü olan universitetlər arasında mümkündür.)

***Prioritet 8.4. İdarəetmə sisteminin təkmilləşdirilməsi***

8.4.1. İdarəetmə orqanlarında maraqlı tərəflərin iştirakına imkan yaratmaq.

8.4.2. Universiotetdə paralel fəaliyyət göstərən qurumların (dekanlıq, kafedra) reytinq sisteminin formalaşdırılması.

8.4.3. Planlaşdırılan dövr üçün Təşkilati straukturun hər bir vahidinin sytategiyanın və taktikaların müəyyənləşdirilməsi və icrasında iştirak səviyyəsinin yüksəldilməsi.

8.4.4. Təşkilati struktur vahidlərinin əsasnamələrinin yenilənməsi fəaliyyət istiqamətləri, səlahiyyətləri, vəzifələri, öhtəliklərini özündə əks etdirən məsələlərin dürüstləşdirilməsi.

## MALİYYƏLƏŞDİRMƏ

BBU-nin inkişaf strategiyası Universitetin gəlirləri, əldə etdiyi beynəlxalq qrantlar hesabına həyata keçiriləcəkdir.

**MONİTORİNQ VƏ QİYMƏTLƏNİRMƏ**

BBU-nun "Strateji inkişaf planı"nın icrası məqsədilə Taktiki plan və cari fəaliyyət planının tərtib edilməsi.

BBU – nin inkişaf strategiyasının icrası vəziyyətinin monitorinqi və qiymətləndirilməsi.

Strateji inkişaf planının ayrı-ayrı "Struktur vahidləri üçün icra planı"nın tərtib olunmalı və planın icrası vəziyyət cari dövrəldə yerinə yetirilməlidir.

Strateji planın BBU-nun daxili keyfiyyət standartlarına uyğunluğu qiymətləndirilməsi.

Hər cari ilin yekununda strateji inkişaf planının yerinə-yetirilməsinin səmərəliliyinin müəyyən edilməsi və qiymətləndirilməsinə dair hesabatın hazırlanması və müzakirəsi.